İmadəddin Nəsimi yaradıcılığının orta məktəbdə tədrisi

Müəllif **Elnarə Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent, AMEA Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi. Bakı, Azərbaycan.
E-mail: dok.elnare_e@mail.ru
https://orcid.org/0000-0002-5779-8899

Annotasiya Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2019-cu il «Nəsimi ili» elan olunmuşdur. 650 illik yubileyini qeyd etdiyimiz şair, həm Azərbaycan ədəbi dilini yüksək səviyyəyə qaldırdığı üçün, həm də fəlsəfi qəzəlin banisi kimi bütün dövrlərdə sevilərək oxunmuşdur. XX əsrin 30-cu illərindən bu günümüzə qədər orta məktəblərdə ustad sənətkarın həyat və yaradıcılığının hansı səviyyədə tədris olunması, şairin bədii irsindən hansı qəzəllərin seçilərək dərsliklərə salınması bu məqalədə diqqət mərkəzinə alınmışdır. Beləliklə, tədqiqatın obyekti Nəsimi yaradıcılığı, predmeti isə ümumtəhsil məktəblərinin dərslikləridir. Qeyd edək ki, İmadəddin Nəsiminin qəzəlləri ilk dəfə Azərbaycanda 1923-cü ildən çap olunmağa başlanılmışdır. M.F.Axundov adına Milli Kitabxanadan əldə etdiyimiz dərsliklərdən bəlli olur ki, artıq 1939-cu ildə 8-ci sinif «Ədəbiyyat» dərsliyində şairin beş qəzəli çap olunub. O zamandan etibarən müxtəlif dövrlərin tələblərinə uyğun dərs proqramlarında müəyyən dəyişikliklər edilməsinə baxmayaraq, ən çox tədris edilən şairin «Ağrımaz», «Dil bazarçısı», «Bulunmaz», «Məndə sığar iki cahan», «Dilbəra» qəzəlləri olub. Ədəbiyyat dərsliklərində bu söz sərrafının həyat və yaradıcılığının təsviri də dövrlərdən asılı olaraq dəyişilib. Məqalədə XX-XXI əsrlərdə Nəsimi yaradıcılığının şagirdlərə öyrədilməsi yolları araşdırılıb, eyni zamanda şairin dil özəlliklərinin dərsliklərə əlavə edilməsi ilə bağlı tövsiyələr verilib.

Açar sözlər İmadəddin Nəsimi, ümumtəhsil məktəbi, dərslik, ədəbiyyat, ana dili.

http://dx.doi.org/10.29228/edu.17

Məqaləyə istinad: Əliyeva E. (2019) *İmadəddin Nəsimi yaradıcılığının orta məktəbdə tədrisi.* «Azərbaycan məktəbi». № 2 (687), səh. 95–108.

Məqalə tarixçəsi: Göndərilib — 17.04.2019; Qəbul edilib — 21.05.2019

Teaching of Imaddadin Nasimi's works at secondary schools

Author **Elnara Aliyeva**
PhD in philology, assistant professor, leading scholar of the Institute of Linguistics named after Nasimi of Azerbaijan National Academy of Sciences. E-mail: dok.elnare_e@mail.ru
https://orcid.org/0000-0002-5779-8899

Abstract President Ilham Aliyev declared 2019 as "Year of Nasimi". The poet whose 650 yearly anniversary is celebrated has always been loved for rising the Azerbaijani literary language to high level and also as the founder of philosophical ghazal. In this article the following points are in the center of attention: how the life and creative activity of the great poet had been taught at the secondary schools since 30's years of XX century, which ghazals from his artistic heritage have been included to the textbooks. So, the research object is the creative activity of Imaddadin Nasimi, the research subject is the textbooks of the secondary schools. It is necessary to remark that the ghazals of I.Nasimi were firstly published in Azerbaijan since 1923. After investigating the textbooks that we got from the National Library named after M.F.Akhundov, it becomes known that in 1939, at literature lesson of eight grade the poet's five ghazals had been taught to the pupils. Since that time there have been carried out some changes according to the demands of the different period, mostly the following ghazals have been taught at schools: "It won't ache" ("Aghrimaz"), "Language trader" ("Dil bazarchisi"), "Won't be found" (Bulunmaz"), "Two worlds might go in me" ("Mende sighar iki jahan"), "Dilbera". In the literature textbooks the description of the life and creative activity of the great poet have been changed depending on the different periods. In the article the author researched the ways of teaching the pupils Nasimi's works in XX-XXI centuries, including recommended to add the language features of the poet's works to the textbooks.

Keywords Imaddadin Nasimi, secondary school, textbook, literature, mother tongue.

http://dx.doi.org/10.29228/edu.17

To cite this article: Aliyeva E. (2019) *Teaching of Imaddadin Nasimi's works at secondary schools.* Azerbaijan Journal of Educational Studies. Vol. 687, Issue II, pp. 95–108.

Article history: Received — 17.04.2019; Accepted — 21.05.2019

Giriş.
Nəsimi irsinin öyrənilməsi

İmadəddin Nəsimi XIV-XV əsr Azərbaycan xalqının dilini, bədii-fəlsəfi düşüncəsini öz yaradıcılığında əks etdirən ədəbiyyatımızın parlaq simalarından biridir. Bəşəri duyğu və düşüncələri əsasını qoyduğu fəlsəfi şeirlərində ifadə edən ustad sənətkar xalqının estetik zövqünün inkişafında əvəzsiz rol oynamışdır. Üç dili mükəmməl bilən şair qələmə aldığı əsərlərində dövrün tələblərinə uyğun həmin dillərin incəliklərindən böyük məharətlə istifadə etmiş, Azərbaycan ədəbiyyatında yeni istiqamət açmışdır. İmadəddin Nəsiminin əsərləri ilk dəfə 1844, 1871 və 1880-ci illərdə İstanbulda nəşr edilmişdir. Azərbaycanda isə 1923-cü ildə «Maarif və mədəniyyət» jurnalının 1-ci nömrəsində şairin bir sıra qəzəlləri — «Ey cənnətin xəndan gülü...», «Firqətin dərdindən ey can...», «Dəryayi mühit cuşa gəldi...», «Məndə sığar iki cahan...» və s. çap olunmuşdur. 1925-ci ildə görkəmli ədəbiyyatşünas alim, maarifçi Firidun bəy Köçərli «Azərbaycan ədəbiyyatı tarixi materialları» kitabında şairin qəzəlini çap etdirmişdir. 1926-cı ildə ədəbiyyatşünas alim Salman Mümtaz Nəsiminin qəzəllərini «Seçilmiş şeirlər» və «Şeirlər» adı ilə nəşr etdirmişdir [İmadəddin Nəsimi – 650. 2019, s.14]. Ümumiyyətlə, Nəsimi yaradıcılığından ilk dəfə əsaslı şəkildə bəhs edən məhz S.Mümtaz olmuşdur. Bundan sonra 1942-ci ildə H.Araslının «Fədakar şair», 1962-ci ildə isə M.Quluzadənin «Nəsimi. Seçilmiş əsərlər» kitabı ərsəyə gəlir. Ustad sənətkarın ana dilində divanının elmi-tənqidi mətnini ilk dəfə professor Cahangir Qəhrəmanov nəşrə hazırlamışdır. O, Nəsimi divanının Bakı, Sankt-Peterburq, Daşkənd, İrəvan əlyazma nüsxələri, əski çap kitabları və digər mənbələr əsasında elmi-tənqidi mətnini tərtib etmiş, 1969-cu ildə «İmadəddin Nəsimi əsərlərinin elmi-tənqidi mətni və leksikası» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Həmin əsər 1970-ci ildə «Nəsimi — «Divan»ının leksikası» adı ilə monoqrafiya şəklində nəşr olunmuşdur [Qəhrəmanov C. 1970]. 1973-cü ildə isə ərəb qrafikası ilə tərtib etdiyi elmi-tənqidi mətnini çap etdirmişdir.

Nəsimi irsinin Azərbaycanda əsaslı şəkildə öyrənilməsi 1970-ci illərdən başlayır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilmiş və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur. Məhz bu illərdə şairin irsinin əhatəli şəkildə tədqiqinə başlanılmışdır. Həmid Məmmədzadənin Nəsiminin «Fars divanı» (1972), H.Araslının «Nəsimi monoqrafiyası» (1972), «Nəsimi. Seçilmiş əsərləri» (1973), C.Qəhrəmanovun «Nəsimi. Məndə sığar iki cahan» və ərəb əlifbası ilə üçcildlik elmi-tənqidi mətni xüsusi qeyd olunmalıdır (1973-cü ildə Dilçilik İnstitutuna, metro stansiyasına və Bakının rayonlarından birinə Nəsiminin adının verilməsi, 1979-cu ildə şairin heykəlinin ucaldılması da məhz yubiley ərəfəsində görülən işlərin nəticəsidir).

1985-ci ildə 20 cildlik «Azərbaycan klassik ədəbiyyatı kitabxanası»nın 5 cildi Nəsimiyə həsr edilmiş, Ə.Səfərli tərəfindən «İ.Nəsimi. Seçilmiş əsərləri» kitabı ərsəyə gəlmişdir. Dilçi alimlər tərəfindən Nəsimi dilinin leksikası, frazeologiyası, qrammatik

xüsusiyyətləri araşdırılmış, Azərbaycan şivələri ilə müqayisəli tədqiqatlar aparılmışdır.

Bu gün Nəsimi irsinin yenidən tədqiqi və şairin xatirəsinin yad edilməsi yenidən gündəmə gəlmişdir. Bunun səbəbi isə İmadəddin Nəsiminin 650 illik yubileyini nəzərə alaraq, ölkə Prezidenti İlham Əliyevin 11 yanvar 2019-cu il tarixli Sərəncamı ilə 2019-cu ilin «Nəsimi ili» elan olunmasıdır. Bu yubiley şairin zəngin irsinin yeni istiqamətdə tədqiqinə təkan verdi. İrəlidə qeyd etdiyimiz kimi, artıq uzun müddətdir ki, filosof şairin qiymətli xəzinəsi tədqiq olunur, qəzəlləri geniş oxucu kütləsi tərəfindən sevilə-sevilə oxunur. XX əsrin əvvəllərindən orta məktəblərin dərs proqramına salınmaqla şagirdlər Azərbaycan ədəbi dilinin Nəsimi dövrü ilə yaxından tanış olurlar. Bu gün orta məktəb dərslikləri yeni sistem əsasında hazırlandığı üçün həmin kitablardakı vəziyyət, oradakı Nəsimi irsinin təhlili və təbliğinin hansı səviyyədə olması və ötən illərin proqramları ilə müqayisələrin aparılması aktuallıq kəsb edir.

İmadəddin Nəsimi yaradıcılığı «Ədəbiyyat» dərsliklərində

Təxminən bir əsrlik dönəmdə Nəsiminin irsinin şagirdlərə hansı səpkidə öyrədilməsi bizdə maraq doğurdu və bu istiqamətdə araşdırma aparmağı qərara aldıq. Həm ədəbiyyat dərslikləri, həm də müntəxəbat kitablarına nəzər saldıq. Dövrün tələblərinin, ictimai-siyasi həyatın dərsliklərdən yan keçmədiyini müşahidə etdik.

1939-cu ildə klassik ədəbiyyatın tədrisi 8-ci sinifdə keçildiyi üçün İ.Nəsimi yaradıcılığı da məhz həmin dövrdə tədris olunmuşdur. Böyük ədəbiyyatçı F.Qasımzadənin tərtib etdiyi müntəxəbata Nəsimi yaradıcılığından seçmələr — 5 qəzəl (o cümlədən «Dilbəra, mən səndən ayru ömrü, canı neylərəm» başlıqlı qəzəli) daxil edilmişdir [Ədəbiyyat xrestomatiyası. 1939, s.119-123]. Əksər sözlərin də izahı kitabda əks olunmuşdur. Təəssüf ki, müntəxəbatla yanaşı, həmin dövrün «Ədəbiyyat» dərsliyi əlimizdə olmadığı üçün orada İ.Nəsimi yaradıcılığının hansı şəkildə tədris edilməsi, şairin həyatının və bədii irsi ilə bağlı təlimin hansı şəkildə aparılması haqqında məlumatımız yoxdur.

1949-cu il «VIII-X siniflər üçün Ədəbiyyat tarixi proqramının layihəsi»nə nəzər saldıqda məlum oldu ki, həmin dövrdə Nəsiminin həyat və yaradıcılığının tədrisinə 6 saat vaxt ayrılmış, xüsusi olaraq, şagirdlərə «Bulunmaz» və «Ey əzəli can ilə cananımız» qəzəllərinin öyrədilməsi məsləhət görülmüşdür. Həmin illərdə Nəsiminin dövrü və həyatı, onun şeirlərində dövrün ictimai zülmünə və din xadimlərinə etiraz, yaradıcılığının əsas xüsusiyyətləri, şairin Azərbaycan ədəbiyyatı tarixindəki yeri tədris olunur və Nəsimi Azərbaycan dilində yazılan şeiri yüksək zirvəyə qaldıran ilk böyük sənətkar kimi şagirdlərə sevdirilir [Qasımzadə F., Xəndan C., Araslı H. 1949, s.24]. Qeyd edək ki, filologiya elmləri namizədləri F.Qasımzadə, C.Xəndan və H.Araslı tərəfindən tərtib edilmiş bu proqram Azərbaycan SSR Maarif Nazirliyi YİK(b)P Mərkəzi Komitəsinin məfkurə məsələlərinə dair qərarlarına

əsaslanaraq hazırlanmışdır.

1949-cu ildə 8-ci sinifdə tədris olunan «Ədəbiyyat müntəxəbatı» dərsliyinə «Ey əzəli», «Camalın fitnəsi», «Şəmi fələk», «Dedilər», «Neylərəm», «Bulunmaz», «Dəryayi-mühit cuşə gəldi», «Sığmazam» qəzəlləri daxil edilmişdir. Görünür, bu illərdə klassikaya, qəzəl və muğama daha çox maraq olduğu üçün dövrün tələblərinə uyğun olaraq, şagirdlər bu qədər qəzəllə tanış edilir. M.Füzuli yaradıcılığının tədrisinə nəzər saldıqda da məlum olur ki, «Leyli və Məcnun» poeması və «Şikayətnamə» satirik epik əsəri ilə yanaşı, 8 qəzəli şagirdlərə təqdim edilir [Ədəbiyyat müntəxəbatı. 1949, s.252-259, s.267-304].

1957-ci ilin 8-ci sinif «Ədəbiyyat müntəxəbatı»na «Dil bazarçısı» və «Ağrımaz» qəzəlləri daxil edilib [Ədəbiyyat müntəxəbatı. 1957, s.140-141].

Burdan belə nəticə çıxarmaq olar ki, XX əsrin I yarımilliyində İ.Nəsimi yaradıcılığına xüsusi önəm verilmiş və geniş tədris olunmuşdur. Lakin 1960-cı ilin 8-ci sinif «Ədəbiyyat» dərsliyini vərəqlədikdə bir qədər təəccübləndik. Çünki həmin dərslikdə bütün məşhur klassiklərə yer verilməsinə baxmayaraq, İ.Nəsiminin həyat və yaradıcılığı yalnız dövrün qısa xülasəsini təqdim edən «XIII-XVI əsr Azərbaycan ədəbiyyatı» mövzusunun daxilində səhifə yarımlıq bir material şəklində təqdim olunur. Burada çox qısa olaraq Nəsiminin həyatından (4 cümlə ilə), sonra yaradıcılığının ziddiyyətli tərəflərindən bəhs olunur. Göstərilir ki, «O, bir tərəfdən böyük şair olaraq yaradıcılığında Nizami ənənələrini davam etdirmiş, xalqın həyat və məişətində gördüyü çətinliklərdən danışmış, ruhanilərə qarşı mübarizə aparmış, digər tərəfdən özü də yeni bir təriqət başçısı kimi dünya və kainat haqqında dini fikirlər söyləmişdir; bir tərəfdən həyatdan, həyatın gözəlliklərindən istifadə etməyi, təbiətin sirlərini öyrənməyi, biliyi, elmi təbliğ edib, o biri tərəfdən dini, tərki-dünyalıq fikirlərini yayan əsərlər yaratmışdır» [Ədəbiyyat. 1960, s.113]. Əslində «XIII-XVI əsrlərdə Azərbaycan ədəbiyyatı» mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş və 1958-ci ildə AMEA-nın müxbir üzvü seçilmiş Həmid Araslının 1960-cı ildə bu dərslikdə İ.Nəsimi yaradıcılığına səthi toxunması çox təəccüb doğurur. Qeyd edək ki, şairin həyat və yaradıcılığı haqqında ədəbiyyatşünas alim, akademik Həmid Araslı 1942-ci ildə «Fədakar şair (İmadəddin Nəsimi)» oçerkini qələmə almışdır. O, həmçinin M.Rəfili ilə birgə «Qədim ədəbiyyat» (Nəsimidən bəhs olunur, 1942, 1945), «İmadəddin Nəsimi» (1972) və Nəsiminin 600 illik yubileyi ərəfəsində nəşr olunan «Nəsimi» (Azərbaycan, rus, ingilis, fransız, alman, ərəb, fars dillərində, 1973) kitablarında şairin həyatının bəzi qaranlıq məqamlarına aydınlıq gətirmiş, Nəsimi şeirinin dil və poetik ifadə gözəlliklərindən söz açmışdır. [İmadəddin Nəsimi – 650. 2019, s.14]. Əslində, Nəsimi irsinin tədqiqatçısı kimi, H.Araslı həmin dərslikdə bu mövzuya daha geniş yer verilməsinə cəhd göstərməli idi. Görünür, proqramın tərtibi ondan asılı olmayıb.

Lakin F.Qasımzadə tərəfindən tərtib edilmiş 1960 və 1961-ci illərin «Ədəbiyyat müntəxəbatı» dərsliyinə 1957-ci ildə olduğu kimi, şairin «Dil bazarçısı» və «Ağrımaz» qəzəlləri daxil edilmişdir [Ədəbiyyat müntəxəbatı. 1960, s.138-139; 1961, s.138-139].

1963-cü ilin 8-ci sinfində qədim dövr ədəbiyyatı keçilsə də, Nizami Gəncəvidən sonra yalnız Məhəmməd Füzuli yaradıcılığı əks olunmuşdur. İ.Nəsimi isə ümumiyyətlə proqrama salınmamışdır. 1965-ci ildə isə 9-cu sinifdə qədim dövr tədris olunub. Burada da analoji hal təkrar olunur. Dərslikdə Nəsimiyə yer ayrılmamışdır. Lakin 1964-cü ilin 9-cu sinfində 60-cı ildə olduğu kimi, «XVII əsrə qədərki Azərbaycan ədəbiyyatı və mədəniyyəti haqqında ümumi məlumat» bölməsində təxminən 2 səhifəlik məlumatla rastlaşırıq [Əbədiyyat. 1964, s.47-48].

1969-cu ilin 8-ci siniflər üçün «Ədəbiyyat müntəxəbatı» kitabında şairin «Dil bazarçısı» və «Ağrımaz» qəzəlləri öz əksini tapmışdır [Ədəbiyyat müntəxəbatı. 1969, s.192-193]. 1971, 1973, 1977-ci illərdə də şagirdlərə eyni qəzəllər öyrədilib. Hətta 1981-ci ildə yenidən proqramda dəyişiklik edilərək məhz bu qəzəllər seçilib. Burdan belə nəticə çıxır ki, təxminən 20 illik bir müddət ərzində (bəzi illərdə ümumiyyətlə proqramdan çıxarılsa da) şagirdlərə əsasən bu iki qəzəl tədris edilib. Onlardan biri şairin ölümü ilə əlaqələndirildiyi üçün aktuallığını itirməmiş, demək olar ki, bütün dövrlərdə diqqət mərkəzində olmuşdur. Digəri isə şairin dil və məzhəblə bağlı düşüncələrini əks etdirir:

Dil bazarçısı yalandır, varmazam bazarına
Gerçək olmaz əgri dil, inanmazam iqrarına.
Sadiq oldur, dilini könlü ilə bir eyləyə
Əyri dildən nəsnə gəlməz, durmuşam inkarına...
Çün Nəsiminin qəmindən Fəzlhəq vaqifdürür
Qəm deyil, gər kimsə olmaz müttəle əsrarına.
[Ədəbiyyat müntəxəbatı. 1971, s.192].

1970, 1972, 1975, 1979-cu illərdə «XIII-XVI əsrdə Azərbaycan ədəbiyyatı» bölməsində dövrün şairləri ilə yanaşı, «fəlsəfi qəzəlin banisi» kimi təqdim olunan Nəsimi yaradıcılığından nümunələr göstərilmədən çox qısa (1-2 səhifə olmaqla) məlumat verilir. Qeyd edilir ki, «Azərbaycan ədəbi dilinin xüsusiyyətlərindən bacarıqlı bir sənətkar kimi istifadə edən Nəsimi şeirimizin bədii cəhətdən zənginləşməsində mühüm rol oynamışdır» [Ədəbiyyat. 1970, s.78]. Qeyd etdiyimiz kimi, 1970-ci ildən Nəsimi irsinin öyrənilməsi geniş vüsət alsa da, şairin 600 illik yubileyi təntənəli surətdə qeyd olunsa da, bu təntənə orta məktəb dərsliklərindən yan keçmişdir.

80-ci illərin ortalarına doğru Nəsimi yaradıcılığı tədricən dərsliklərdə daha geniş əks olunmağa başlayır. 1984-cü ildə 8-ci sinif «Ədəbiyyat» dərsliyində şairin həyat və yaradıcılığı haqqında məlumat verilir, ictimai və fəlsəfi qəzəlləri, xüsusən «Məndə sığar iki cahan» və «Ağrımaz» qəzəlləri təhlil edilir, Nəsimi dilinin bədii xüsusiyyətləri, şeirlərində işlənmiş qədim Azərbaycan–türk sözləri diqqətə çatdırılır [Ədəbiyyat. 1984, s.79-93].

1985-ci ildə isə «Ədəbiyyat müntəxəbatı»na şairin «Məndə sığar iki cahan» və «Ağrımaz» qəzəlləri ilə yanaşı, «Bulunmaz» qəzəli də daxil edilir. «Bulunmaz» rədifli qəzəlində görkəmli söz ustadı eyni anlamda həm türk mənşəli «könül», həm də fars mənşəli «dil» sözlərindən istifadə etməklə poetiklik yaratmışdır:

Dərdü qəm ilə yandı könül, yar bulunmaz,
Çar darü diyar istədi, dəyyar bulunmaz...
Adət budurur kim, dili dildarə verərlər,
Dil getdi əlimizdənü dildar bulunmaz.
[Ədəbiyyat. 1985, s.106].

Ümumiyyətlə, Nəsiminin dilində sinonimlər öz rəngarəngliyinə görə seçilir. O, eyni məqamda həm milli, həm də alınma sözdən istifadə edir. Sinonimlər bəhsinin tədrisində Nəsimi yaradıcılığının bu incəliklərini şagirdlərin nəzərinə çatdırmaq lazımdır. Məsələn, yuxarıda adını çəkdiyimiz «Dil bazarçısı» qəzəlində milli mənşəli dil sözündən istifadə edir, «Mən» rədifli digər qəzəlində isə fars mənşəli zəban sözünü işlədir:

Mən atəş-i nur-i eşq-i həqqəm,
Musayə zəban, zəban mənəm, mən!
Sadiq oldur dilini könlü ilə bir eyləyə
Əyri dildən nəsnə gəlməz, durmuşam inkarına.

«Var bu cahanda özgə bir cahanımız» başlıqlı qəzəlində isə həm türk mənşəli dil, həm də ərəb mənşəli lisan sözləri ilə rastlaşırıq:

Sən bu Nəsiminin dilini anla, bil sözün
Kim var bu dildən özgə bir lisanımız.

Əslində, şairin dilinin üslubi xüsusiyyətləri izah olunarkən bu incə məqamlara da diqqət çəkmək lazımdır.

1994-cü ildə Ə.Səfərli və X.Yusifli tərəfindən tərtib edilmiş IX sinif «Ədəbiyyat» dərsliyində ilk öncə şairin doğulduğu dövr haqqında Əmir Teymur və Toxtamış istilaları haqqında məlumat verilir. Daha sonra orta əsrlərdə hakim dini ideologiya ilə yanaşı mövcud olan, hətta onunla barışmayan cərəyanlar, o cümlədən hürufizm cərəyanı, onun mahiyyəti və ideoloqları haqqında üç səhifə məlumat verilir. Bunun ardınca həyatı və çox geniş şəkildə yaradıcılığı (4 səhifədə) təhlil edilir [Ədəbiyyat. 1994, s.152-174]. Şairin yaradıcılığından bəhs edərkən göstərilir ki, Nəsimi öz zəmanəsinin yalan və hiylə üzərində qurulduğunu, vəfalı insanların olmadığını bildirir, dünyanı tikanlı bağa bənzədir:

Bivəfadır çün bu aləm, kimdən istərsən vəfa,
Bivəfa aləmdə yari-vəfadar istəmə...

Yaxud:

Yoxdur vəfası dünyanın, aldanma anın alına,
Rəngindən oldu münfəil hər kim boyandı alına
[Ədəbiyyat. 1994, s.160].

Dərslik müəllifləri bu bölmədə «Nədir», «Etməgil» rədifli və «Düşdü yenə dəli könül gözlərinin xəyalinə» başlıqlı qəzəllərinin də qısa təhlilini verməklə şagirdləri Nəsimi dühası ilə yaxından tanış etməyə çalışırlar. Bundan sonra isə əsas diqqət mərkəzində olan «Sığmazam» rədifli və «Dilbəra, mən səndən ayru» başlıqlı qəzəlləri beytlər üzrə təhlil edilir. Beləliklə, şagirdlər qəzəllərin bədii xüsusiyyətləri, Nəsimi dilinin incəlikləri ilə də yaxından tanış olurlar. Hər səhifənin sonunda mənası

aydın olmayan, çətin sözlərin, həmçinin arxaizmlərin izahı verilir.

Apardığımız araşdırmalar göstərdi ki, 2000-ci ilə kimi IX sinif «Ədəbiyyat» dərsliyi eyni kollektiv tərəfindən tərtib olunub və bu illər ərzində Nəsiminin tədrisində heç bir dəyişiklik müşahidə edilmir [Ədəbiyyat. 2000, s.151-174].

Kurikulum proqramı əsasında tərtib olunmuş müasir dərsliklərdə isə artıq başqa mənzərə ilə rastlaşırıq. 2015-ci ildə nəşr olunmuş 8-ci sinif «Ədəbiyyat» dərsliyi H.Araslıdan sitatla başlayır, sonra «Ağrımaz» qəzəli təqdim olunur [Ədəbiyyat. 2015, s.39-42]. I dərsdə qəzəl öyrədilir, II dərs əsərin təhlilinə həsr olunur. Burada əruz vəzni və onun bəhrləri haqqında qısa məlumat verildikdən sonra rəməl bəhri izah olunur. Sonda isə Nəsiminin hürufizmi təbliğ etməsi və bu qəzəlin edam öncəsi yazılması haqqında qısa (4 cümlə ilə) məlumat verilir. III dərs qəzəl üzrə «tətbiq-müzakirə-yaradıcı iş»dən ibarətdir. Dərsliyin sonunda mövzular üzrə təqdim olunan internet mənbələri arasında mövzu üzrə «Ağrımaz» və Nəsimi filmi haqqında vikimənbələr göstərilib [Ədəbiyyat. 2015, s.205]. Çətin anlaşılan sözlər isə kitabın arxasındakı lüğətdə əks olunub.

Bütün bunlarla yanaşı, qeyd etməliyik ki, mövzu üzrə ilk dərsdə «Ağrımaz» qəzəlinin yaranma səbəbi, şairin dünyagörüşü ilə bağlı heç bir məlumat verilmir. Əslində, nəzərə alınmalı idi ki, bu, şagirdin İmadəddin Nəsimi yaradıcılığı ilə ilk tanışlığıdır. Bu səbəbdən də şairin həyat və fəaliyyəti haqqında müəyyən informasiya verilməsi məqsədəuyğun olardı.

Şagirdə izah olunmalıdır ki, gənc yaşlarından müxtəlif təriqətlərlə — eyni əqidə, məslək sahiblərini birləşdirən təşkilatlarla maraqlanan Nəsimi zülmə, ədalətsizliyə qarşı çıxan hürufilərə (onlar varlığın sirrini ərəb əlifbasının hərflərində görürdülər) qoşulmuşdur. Onun əsərlərinin böyük bir qismi hürufi ideyalarının şərhinə və təbliğinə həsr olunub. Hürufiliyi təbliğ etdiyinə görə təqib olunan şair 1417-ci ildə Hələb şəhərində edam edilmişdir. Ehtimal olunur ki, «Ağrımaz» qəzəli edam öncəsi yazılmışdır. Şeiri oxuduqca tutduğu yolun doğru və ədalətli olduğuna ürəkdən inanan cəsarətli, yenilməz insan obrazı göz önündə canlanır. Bu obrazı hərtərəfli səciyyələndirmək və dəyərləndirmək üçün şeirdəki hər sözün, ifadənin üzərində ciddi düşünmək və əsərdə geniş istifadə olunmuş təzadların rolunu aydınlaşdırmaq faydalıdır.

Dərsin sonunda «Məzmun üzərində iş» bölümündə şagirdlərə tanış olmayan sözlərin mənasının aydınlaşdırılması tapşırılır. Dərsliyin sonundakı lüğətdə isə həmin sözlərin hamısı əks olunmamışdır. Yenə şagirdlər çətinliklə üzləşirlər.

Eyni sistem əsasında tərtib olunmuş 2018-ci ilin 10-cu sinif «Ədəbiyyat» dərsliyi M.Quluzadədən aşağıdakı sitatla başlayır: «Üç dili mükəmməl bilməsi sayəsində Nəsimi Yaxın Şərq bədii fikrinin ən gözəl nailiyyətlərinə yiyələnmiş, geniş biliyə, parlaq istedada, yüksək sənətkarlıq mədəniyyətinə malik ustad bir şair kimi Azərbaycan şeirinə və türk xalqlarının ədəbiyyatına yeni istiqamət vermişdir» [Ədəbiyyat. 2018, s.57].

Sonra hürufi şair kimi Nəsiminin həyatı və yaradıcılığı qısa təhlil edilir və yaradıcılığı iki istiqamət üzrə– təriqət şeirləri və dünyəvi şeirlər olmaqla diqqətə

çatdırılır. Ardınca şairin «Sığmazam» rədifli qəzəli və onun sadələşdirilmiş təqdimatı verilir. III dərsdə isə qəzəlin təhlili aparılır. Qeyd edək ki, bu məlumatda onun yaşadığı mühit, üzləşdiyi çətinliklər olduqca ötəri təsvir edilir. Şairin əvvəlcə sufizmə, sonra hürufizmə meyil etməsi vurğulansa da, bu iki cərəyanı fərqləndirən məqamlar, şairin dünyagörüşündəki dəyişikliklərin səbəbi qeyd olunmur.

Əslində, sufi sözünün mənşəyi ilə bağlı fərqli fikirlər yayılsa da, sufilərin başqalarından fərqlənmək üçün yun xirqə və ya paltar geyindiklərini nəzərə alıb, tədqiqatçılar bu ifadənin daha çox «yun» mənalı suf sözü ilə bağlı olduğunu iddia edirlər. «Sufizm məhz həmin dünyapərəstliyə, mənfəətgirliyə, sərvətpərəstliyə, haqqı atıb dünyanı tutmağa qarşı dinc etiraz forması kimi təzahür edib intişar tapdı. Sufizmin bir etiqad və düşüncə tərzi kimi özünəqədərki başqa din və fəlsəfi görüşlərlə bağlılığı və oxşarlığı olsa da, o, islam dininin bətnindən doğulmuş, mühüm bir islam hadisəsi kimi nəşət etmişdi. Doğrudan da, onun əsas qaynaqları məhz islami cəmiyyətin atributlarıdır» [Babayev Y. 2007, s.12]. Əsasən XIV-XV yüzilliklərdə təzahür edən sufizmdə «vəhdəti-vücud» nəzəriyyəsi xüsusi rol oynadığı üçün dərsdə yeri gəlmişkən bu haqda da şagirdlərə məlumat verilsəydi, daha yaxşı olardı. «Vəhdəti-vücud» nəzəriyyəsinin sufilərlə hürufiləri birləşdirməsi də qeyd olunmalıdır.

Əvvəllər sufizmə meyil edən Nəsimi sonradan ustadı Nəiminin təsiri ilə hürufizmə sığınır. Dərslikdə «hürufizm» termini izah olunmasa da, onun mahiyyəti qısa şərh olunmuşdur. Sonra isə «Sığmazam» qəzəli və onun təhlili verilmişdir. Lakin mövzunun təhlilində şeirdəki arxaik sözlər, onların izahı, daha doğrusu, lüğət üzrə iş nəzərdə tutulmamışdır. Əvvəlki dövr dərsliklərində poeziya, o cümlədən nəsr nümunələrində işlənmiş ümumişlək olmayan sözlər (arxaizmlər, terminlər və s.) hər mətnin altında qeyd olunurdu ki, bu da şagirdlərin söz ehtiyatının zənginləşməsində, dilin leksik qatlarının mənimsədilməsində mühüm rol oynayırdı. Doğrudur, dərsliyin sonunda lüğət verilsə də, burada qəzəldə işlənilmiş, mənası şagirdlər üçün aydın olmayan sözlərin hamısı əks olunmamışdır.

İmadəddin Nəsimi yaradıcılığı fənlərarası inteqrasiyanın obyekti kimi

Kurikulum proqramında Azərbaycan dili dərsliklərində bədii mətn parçaları verildiyi halda, «Ədəbiyyat» dərsliyində də dilçilik termini kimi arxaizmlərin, sinonimlərin izahı verilə bilərdi. Bu isə tətbiqi baxımdan fənlərarası əlaqənin inkişafına təkan verərdi. Belə olan halda şagird artıq Azərbaycan dili dərsində leksik söz qruplarını öyrənərkən bədii ədəbiyyat nümunələrindən asanlıqla sitat gətirə bilər.

Nəsimi dilində *çünki* bağlayıcısının həm *çün* şəklində, həm də *çünki* şəklində işlənilməsi müşahidə olunur:

Ərşlə fərşü kafü nun məndə bulundu cümlə çün,
Kəs sözünü və əbsəm ol, şərhü bəyanə sığmazam.

Zərrə mənəm, günəş mənəm, çar ilə pəncü şeş mənəm,
Surəti gör bəyan ilə, çünki bəyanə sığmazam.

Şagirdlərə izah olunmalıdır ki, müasir Azərbaycan dilində *çünki* şəklində sabitləşmiş bağlayıcı bu gün sadə sayılsa da, Nəsimi dövründə *çün* və *ki* hissələrindən ibarət mürəkkəb söz idi. Müşahidələr göstərir ki, Nəsiminin dilində *çün* variantının işlənmə tezliyi daha çoxdur.

Nəsiminin dili, ən əsası, həm də həmcins üzvlərdən, sinonimlərdən incəliklə istifadə etməsinə görə seçilir. Dildə məharətlə üslubi fiqurlar yaradan şair, demək olar ki, əksər şeirlərində sinonimik cərgə yaratmışdır. Məsələn:

Təbibib, şərbətim, dürdim, nəbatım, şəkkərim, qəndim,
Əlacım, məlhəmim, çarəm, Cəlunis ilə Loğmanım.
[İ.Nəsimi. 1973. s.143].

Bu baxımdan, Azərbaycan dili dərsində — sinonim bəhsində ev tapşırığı olaraq şagirdlərə İ.Nəsimi qəzəllərindən nümunələr toplamaq tövsiyə oluna bilər. Bu, şagirdlərdə həm yaradıcılıq qabiliyyətinin, nitqinin inkişafına, həm də ədəbiyyata marağının artmasına səbəb ola bilər.

Şairin dilində yaşadığı dövrün izlərini – etnoqrafik leksikanı əks etdirən kifayət qədər tarixizmlər də işlənmişdir. Onlardan biri *kəpənək* sözüdür. Müasir dil baxımdan həşərat kimi anlaşılan kəpənək sözü şairin dövründə geyim adıdır. Məsələn, nümunəyə diqqət edək:

Kəpənək geymişəm əndişədən azad olubam,
Üşümək müşkilini eylədi asan kəpənək.
[Qəhrəmanov Ç. 1970, s.117].

Nəsiminin qiyafətinin bu cür dəyişməsinin səbəbi ustadı Fəzlullah Nəiminin müridlərinə ithafən yazıb göndərdiyi «Vəsiyyətnamə» əsərindəki xəbərdarlıq idi:

«Öz geyiminizi xarici görünüşünüzü dəyişin, şirvanlı və dağlı camaatının şəklinə salın. Möhkəm və əlçatmaz ucqarlara gedin. Bu işi olduqca tez edin ki, hələ ordudan arxanızca heç kim gəlməmiş və tələfata uğramamış getmiş olasınız. Əlbəttə, əlbəttə, getməkdə tələsin. Uzaq dağlıq yerlərə çəkilin».[1]

Təbii ki, ustadına sonsuz sevgi bəsləyən Nəsimi «Vəsiyyətnamə»dəki bu çağırışa biganə qala bilməzdi və o, qısa zaman çərçivəsində libasını dəyişərək səfərə çıxır və ucqar bir dağ kəndinə pənah aparır.

Şairin «Kəpənək» rədifli iki şeiri vardır ki, bunların biri türkcə, digəri isə farscadır. Ana dilində yazdığı qəzəlində daha sadə təqdimatla kəpənəyin mahiyyəti açılır, burda sözün nisbətən həqiqi mənaları diqqəti çəkir. Burada kəpənək üşüməkdən qorunmaq vasitəsidir. Akademik R.Hüseynovun «sözün həm nökəri, muzduru, xidmətçisi, həm də ustadı, hakimi, padşahı, pərdəli və pərdəsiz» kimi təqdim etdiyi Nəsiminin farscadakı bir şeirində kəpənəyin məhz onun aid olduğu təriqətlə bağlılığı

[1] http://www.anl.az/el/emb/inesimi.pdf

açıq hiss olunur. «Sufilərin özlərini qorumaq üçün əməl etdikləri bəlli vərdişlərdən, rəsmlərindən (qaydalardan) biri dərin konspirasiya, çevik uyğunlaşma olmuşdur. Onlar təqiyyə – zahiri qorunma məqsədilə hər hansı məzhəbin, ya təriqətin aparıcı, ya hökmran mövqe tutduğu məkanda yaşamalı olduqları təqdirdə üzdən özlərini həmin məzhəb və təriqətlərə bağlı olan kimi göstərməyə çalışmalıydılar. Geyim atributları da bu uyğunlaşmanın gözəgörünən əlamətlərindən idi».[2] Məhz bu səbəbdən şair qeyd olunan şeirində kəpənək sözünün əsl mahiyyətini açmışdır. O, kəpənək geyərək qoşulduğu cərəyanın daha mükəmməl olduğunu, məhz burada axtardığını — cənnəti, huri-qılmanı tapdığını vurğulayır.

Müasir türk dilində kəpənək sözü «çobanların geyindikləri tikişsiz, qolsuz, keçədən paltar» anlamında hələ də işlənir. Bu dildə, həmçinin «insanları geyiminə görə qiymətləndirmək doğru olmaz» mənasında «kepenek altında er yatar» frazeologizmi də mövcuddur .

«Kitabi-Dədə Qorqud» dastanlarında da *kəpənək* leksik vahidi işlənmişdir: «Oğlana qara kəpənək gedirmişlərdi».

Nəsiminin qəzəllərində Azərbaycan dilinin kaloritini əks etdirən qədim türk sözləri də işlənmişdir. Məsələn:

Dilbər aydır, ey Nəsimi, sabir ol, qılma fəğan
Mən bu gün səbr eyləsəm,danla, fəğanı neylərəm?

Bu sətirlərdə işlənmiş aymaq «demək» feili uzun müddət ədəbi dilimizdə ümumişləkliyi ilə seçilmişdir. Ayıtmaq feili «Kitabi-Dədə Qorqud» dastanında da çox işlənən feillərdəndir. Məsələn, *El-evünüzdə çalıb ayıdan ozan olsun! Əlin bögrinə urar, aydar* [«Kitabi-Dədə Qorqud» dilinin izahlı lüğəti. 1999, s.14].

Qeyd edək ki, bu feil XIX əsrə kimi ədəbi dilimizin aktiv lüğət fonduna daxil olmuş, tədricən ümumişləklik xüsusiyyətini itirmiş, yalnız dialektlərdə qalmışdır. E.Əzizov bu qədim *ay* kökünün Füzuli rayon şivələrində saxlandığını yazır: — *O ma: söz aydı* [Əzizov E. 2016, s.213].

Kürdəmir şivəsində isə bu feil *aydırmax* («demək, anlatmaq») şəklində hələ də işlənməkdədir: — *Anasına aydırdı ki, o qızı isseyir* [Azərbaycan dilinin dialektoloji lüğəti, s. 22].

Müasir türk dilində də bu ifadə köhnəlmiş və yalnız dialektlərdə qalmışdır. Lakin türkmən dilində isə «demək, söyləmək; danışmaq; yerinə yetirmək; adlandırmaq» mənalarında *aytmak* feili işlənmə aktivliyini saxlamışdır [Туркменско-русский словарь. 1968, 35].

R.Məhərrəmovanın araşdırmalarına görə, Həbibi və Xətai yaradıcılığında da *aymaq* feili kifayət qədər işlənmişdir [Məhərrəmova R. 2012, s.49].

V.Aslanov haqlı olaraq qeyd edir ki, «Nəsimi şeirlərində ərəb-fars söz və söz birləşmələrinin çoxluğuna baxmayaraq, onun dilinin əsasında XIV-XV əsr Azərbaycan

---

[2] http://etikxeber.az/n%C9%99simi-seirind%C9%99-p%C9%99rd%C9%99-v%C9%99-p%C9%99rd%C9%99nin-ardindakilar-akademik-yazir/

dili durur; Nəsimi poetik nitqində bəzən yerli dialekt və adi danışıq dili ünsürlərinə təsadüf edirik ki, bunlar hətta cənub-qərb qrupu türk dillərinə daxil olan başqa qohum dillərə də yaddır» [Aslanov V. 1973, s.170]. Məsələn, yenə bir nümunəyə nəzər salaq:

İstərəm vəsli-cəmalın ta qılam dərdə dəva,
Mən sənin bimarınam, özgə dəvanı neylərəm?

Bu sətirlərdə dilin aktiv lüğət fondundan çıxmış *qılmaq* feili ilə rastlaşırıq. Həmin feil dilin ən qədim leksik qatlarına aid olub «Kitabi-Dədə Qorqud» dastanında da işlənmişdir. Məsələn, — *«Oğul, oğul» deyübən zarlıq qıldı, ağladı* [«Kitabi-Dədə Qorqud» Ensiklopediyası. 2000]. *Etmək* feilinin sinonimi olan *qılmaq* feili XVIII əsrə qədərki yazılı abidələrimizdə də məhsuldarlığı ilə seçilmiş, müasir dilimizdə isə arxaikləşərək İsmayıllı, Cəbrayıl və Bakı şivələrində də qalmışdır. — *Muni belə qoymağ olmaz, muna bir çarə qılmağ lazımdu* [Rüstəmov R. 1965, s.164-165].

Yaxud ustad sənətkar «hiylə» mənasında qədim türk sözü olan *al* leksik vahidini işlətməklə çox maraqlı üslubi fiqurlar yaratmışdır:

Al ilə ala gözlərin aldadı aldı könlümü,
Alını gör nə al edər, kimsə irişməz alinə

Bu sətirlərdə biz söz sərrafı Nəsiminin müasir dilimizin aktiv lüğət fondundakı *aldatmaq* feilinin kökü olan *al* «hiylə» ismindən necə məharətlə istifadə etdiyinin şahidi oluruq. Arxaizmlər mövzusunun tədrisində bu sətirləri şagirdlərə öyrətməklə həm mövzunun asan qavranılmasına, həm də Nəsimi yaradıcılığının təbliğinə şərait yaratmış oluruq. Bu sətirlər həm də etimologiya bölməsində verilə bilər. Belə ki, şagird *aldatmaq* feilinin etimoloji izahını öyrənməklə, kökü daşlaşmış digər feillərə də yaradıcı yanaşa bilər.

Nəticə

Apardığımız araşdırma zamanı Azərbaycan ədəbiyyatının və dilinin inkişafında misilsiz xidmətləri olan İ.Nəsimi yaradıcılığının ədəbiyyat dərsliklərindəki əksi və müqayisəli təhlili göstərir ki, XX əsrin 1-ci yarısında və sonlarında şairin həyatı və bədii irsi daha əhatəli şəkildə şagirdlərə tədris edilmişdir. Araşdırma nəticəsində o da məlum oldu ki, müxtəlif dövrlərin tələblərinə uyğun olaraq, dərsliklərdə müəyyən dəyişikliklər edilməsinə baxmayaraq, ən çox tədris edilən — şairin *«Ağrımaz», «Dil bazarçısı», «Bulunmaz», «Məndə sığar iki cahan», «Dilbəra»* qəzəlləri olub. Ədəbiyyat dərsliklərində bu söz sərrafının həyat və yaradıcılığının təsviri də dövrlərdən asılı olaraq dəyişilib. Belə ki, XX əsrin ortalarında bu ustad sənətkar haqqında çox qısa məlumat verilir, bəzi illərdə isə ümumiyyətlə adı çəkilmir. Yalnız Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə dövlət səviyyəsində 1973-cü ildə şairin xatirəsi əbədiləşdirilməyə başlanılmışdır. Sovet dönəmində bu inqilabi dəyişiklik dərsliklərə uzun müddət sirayət edə bilməmişdir. Müasir demokratik, multikultural dövrümüzdə isə Nəsimi irsinin şagirdlərə çox bəsit şəkildə təqdim olunması, onun şəxsiyyətinin öyrədilməməsi təəssüf doğurur. Əslində, müasir şair və yazıçıların həyatı ilə tanış

olmadan onların əsərlərini şagirdlər oxuyub anlaya bilərlər. Lakin Nəsimi kimi klassiki, müxtəlif cərəyanların təsiri nəticəsində dünyagörüşü formalaşmış bir sənətkarı anlamaq üçün öncə onun həyatı və dövrü tədris olunmalıdır.

Bununla yanaşı, qeyd etməliyik ki, İ.Nəsimi irsi təkcə «Ədəbiyyat» dərslikləri ilə məhdudlaşdırılmamalı, Azərbaycan dili dərsliklərində də şairin bədii irsindən nümunələr verməklə dilimizin incəlikləri ilə şagirdlər tanış olmalıdırlar.

İstifadə edilmiş ədəbiyyat

1. Babayev Y. (2007) Təriqət ədəbiyyatı: sufizm, hürufizm. Ali məktəblərin filoloji fakültələri üçün dərs vəsaiti. Bakı, Nurlan. 128 səh.
2. Ədəbiyyat xrestomatiyası. (1939) Orta məktəbin 8-ci sinfi üçün. Tərtib edəni: Qasımzadə F. . Bakı, Azərnəşr. 293 s.
3. Ədəbiyyat tarixi proqramı.VIII-X siniflər üçün. (1949) Tərtib edəni: Qasımzadə F., Xəndan C., Araslı H. Bakı.
4. Ədəbiyyat müntəxəbatı. Orta məktəbin 8-ci sinfi üçün. (1949) Tərtib edəni: Qasımzadə F. Bakı, Azərnəşr. 452 s.
5. Ədəbiyyat müntəxəbatı. Orta məktəbin 8-ci sinfi üçün. (1957) Tərtib edəni: Qasımzadə F. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı. 342 s.
6. Ədəbiyyat. Orta məktəbin 8-ci sinfi üçün. (1960) Tərtib edəni: Araslı H. Bakı, Azərtədrisnəşr. 235 s.
7. Ədəbiyyat müntəxəbatı. Orta məktəbin 8-ci sinfi üçün. (1960) Tərtib edəni: Qasımzadə F. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı.
8. Ədəbiyyat müntəxəbatı. 8-ci sinif üçün. (1961) Tərtib edəni: Qasımzadə F. Bakı, Azərbaycan Dövlət tədris pedaqoji ədəbiyyatı nəşriyyatı. 340 s.
9. Ədəbiyyat.8-ci sinif üçün müntəxəbat. (1963) H.Axundov. Bakı, Azərbaycan Dövlət tədris pedaqoji ədəbiyyat nəşriyyatı. 164 s.
10. Ədəbiyyat. 9-cu sinif üçün. (1964) Tərtib edəni: H.Araslı. Bakı Azərbaycan Dövlət tədris pedaqoji ədəbiyyatı nəşriyyatı. 256 s.
11. Ədəbiyyat. 9-cu sinif üçün. (1965) Tərtib edəni: H.Araslı. Bakı Azərbaycan Dövlət tədris pedaqoji ədəbiyyatı nəşriyyatı. 256 s.
12. Ədəbiyyat müntəxəbatı. 8-ci sinif üçün. (1969) Tərtib edəni: Qasımzadə F. Bakı, Maarif. 352 s.
13. Ədəbiyyat. Orta məktəbin 8-ci sinfi üçün. (1970) Tərtib edəni: Araslı H., Eyvazov B. Bakı, Maarif.
14. Ədəbiyyat müntəxəbatı. Orta məktəbin 8-ci sinfi üçün. (1971) Tərtib edəni: Qasımzadə F. Bakı, Maarif.
15. Ədəbiyyat. Orta məktəbin 8-ci sinfi üçün. (1972) Tərtib edəni: Araslı H., Eyvazov B. Bakı, Maarif. 192 s.
16. Ədəbiyyat müntəxəbatı. 8-ci sinif üçün. (1973) Tərtib edəni: Qasımzadə F. Bakı, Maarif. 320 s.

17. Ədəbiyyat. Orta məktəbin 8-ci sinfi üçün. (1975) Tərtib edəni: Araslı H., Eyvazov B. Bakı, Maarif. 192 s.
18. Ədəbiyyat müntəxəbatı. 8-ci sinif üçün. (1977) Tərtib edəni: Qasımzadə F. Bakı, Maarif. 320 s.
19. Ədəbiyyat. Orta məktəbin 8-ci sinfi üçün. (1979) Tərtib edəni: Araslı H., Eyvazov B. Bakı, Maarif. 192 s.
20. Ədəbiyyat müntəxəbatı. 8-ci sinif üçün. (1981) Tərtib edəni: Qasımzadə F. Bakı, Maarif.
21. Ədəbiyyat. Orta məktəbin 8-ci sinfi üçün. (1984)Tərtib edəni: Araslı H., Eyvazov B. Bakı, Maarif. 192 s.
22. Ədəbiyyat müntəxəbatı. 8-ci sinif üçün. (1985) Tərtib edəni: Qasımzadə F., Mikayılov Ş., Səmədov A. Bakı, Maarif.
23. Ədəbiyyat müntəxəbatı. 8-ci sinif üçün dərslik. (1991) Tərtib edəni: Əliyeva Z., Bağırov B. Bakı, Maarif. 353 s.
24. Ədəbiyyat. 9-cu sinif üçün dərslik. (1994) Tərtib edəni: Səfərli Ə. Yusifli X. Bakı, Öyrətmən. 188 s.
25. Ədəbiyyat. 9-cu sinif üçün dərslik. (2000) Səfərli Ə. Yusifli X. Bakı, Öyrətmən.
26. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin VIII sinfi üçün dərslik. (2015) Tərtibçilər: S.Əliyev, B.Həsənov, A.Mustafayeva, N.Verdiyeva, S.Məmmədova. Bakınəşr. 208 s.
27. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik. (2017) Tərtib edəni: Əliyev S., Həsənov B., Mustafayeva A., Verdiyeva N., Məmmədova S. Bakınəşr.
28. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik. (2018) Tərtibçilər: Əliyev S., Həsənov B., Mustafayeva A. Bakınəşr.
29. Əzizov E. (2016) Azərbaycan dilinin tarixi dialektologiyası: Dialekt sisteminin təşəkkülü və inkişafı. Dərs vəsaiti. 2-ci nəşri. Bakı: Elm və təhsil. 348 s.
30. İmadəddin Nəsimi – 650: metodik vəsait. (2019) Tərt. ed. L.Əhmədova; elmi red. K.Tahirov; red. A.Abdullayeva. Bakı, 57 s.
31. İmadəddin Nəsimi. (1973) Məqalələr məcmuəsi. Bakı, Elm. 272 s.
32. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. (1973) Tərtib edəni H.Araslı. Bakı, Azərnəşr.
33. «Kitabi-Dədə Qorqud» dilinin izahlı lüğəti. (1999) Red. Axundov A. Bakı: Elm.
34. «Kitabi -Dədə Qorqud» Ensiklopediyası: I cild. (2000) Bakı: Yeni nəşrlər.
35. Qəhrəmanov C. (1970) Nəsimi «Divan»ının leksikası. Bakı, Elm.
36. Məhərrəmova R. (2012) XV-XVI əsrlər Azərbaycan ədəbi dili: leksika, söz yaradıcılığı. Bakı: Elm və təhsil. 224 s.
37. Paşayev Q. (2010) Nəsimi haqqında araşdırmalar. Bakı, Qarabağ. 168 s.
38. Rüstəmov R. (1965) Azərbaycan dili dialekt və şivələrində feil. Bakı: Azərb. SSR Elmlər Akademiyası Nəşriyyatı. 320 s.
39. Туркменско-русский словарь. (1968) Москва: Сов. Энциклопед. 832 с.
40. http://www.science.gov.az/news/open/9534
41. https://teleqraf.com/news/toplum/202062.html
42. http://www.anl.az/el/emb/inesimi.pdf
43. http://etikxeber.az/n%C9%99simi-seirind%C9%99-p%C9%99rd%C9%99-v%C9%99-p%C9%99rd%C9%99nin-ardindakilar-akademik-yazir/